# Dünya ilə söhbət



**Şirməmməd QÜDRƏTOĞLU,**
*Naxçıvan Dövlət Universitetinin ingilis dili və tərcümə kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent*

Alıb ələ qəbzəsindən o qan sızan
Yup-yumşaq, o ağ, pambıq qılıncını,
Sən dərmədən nəfəsini, sən almadan bir dincini
Doğrayırsan solu, dünya, sağı, dünya,
İçirirsən düz sədalı, haqq nidalı insanlara
Zəhər, dünya, ağı, dünya.
Kəsilirsən ədalətin təşnəsinə
Sən paklığın hürr səsinə
Düşmən, dünya, yağı, dünya.
Neçə-neçə işlərin var saxta, dünya, paxır, dünya.
Olacaqmı bu işlərə axır, dünya?
Kef eləyən, nəf eləyən - saxta, nahaqq,
Söylə mənə, bəs nə qədər lax olacaq
Sənin hökmün axı, dünya?
Unutma ki, Allah göydən baxır, dünya!..
Süzüb məni yazıq-yazıq, tənə ilə
Deyir fağır-fağır dünya: "İnsan, insan,
Nahaq məni qınayırsan -
İnsan özü indi mənə gəlir hədə,
Mən özüm də yaşayıram intizarda, səksəkədə.
Vahiməsiz baxammıram mən sabaha.
Bu atomlu, neytronlu,
Bu terrorlu, ölüm, qanlı
İnsan ilə bacarmıram, qardaş, daha…"
Dünya, dünya,
Qəlp işlərdən yox xəbərin sənin guya.
At üstündən hər təqsiri, hər günahı,
Qoy ucalsın asimana insan ahı.
Say özünü sudan duru, aydan arı.
İnsanların göz yaşları
Qoy çevrilsin ümmanlara…
Qoy sən deyən doğru olsun.
Biz söyləyən yalan, dünya.
İnsanlığa nə bir çarə, əlac axtar,
Nə yol ara -
Sənə nə var,
Hər nə edir, insan edir,
Hər nə olur, olacaqdır insanlara.
Sən özünçün "hərlən, dünya", "fırlan dünya".